**Cəfərov M.** Onlar daim minnətdarlıqla anılacaqlar // Respublika. - 2024. - 13 avqust. - **№ 171**. - S. 8.

**44 günlük Vətən müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin nə qədər güclü olduğunu ortaya qoydu. Odur ki, gənclərimiz döyüş meydanında vətənpərvərlik hisslərini nümayiş etdirdilər. Respublikamızın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanlardan biridir Eyvazlı Məzdək Əli oğlu.**

2017-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu olub və hərbi xidmətə yollanıb. Gədəbəydə yerləşən "N" saylı hərbi hissədə Vətənə borcunu verib. Hərbidən qayıtdıqdan sonra "Azərsu" Açıq Səhmdar Cəmiyyətində işləyib. 2020-ci il sentyabrın 21-də hərbi səfərbərlik çağırışı ilə təlimlərə qoşulub. 27 sentyabrda isə müharibəyə yollanıb. 29 oktyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Bacısının xatirələrindən: "Qardaşım uşaq vaxtı çox sakit, ağıllı uşaq olub. Uşaq ikən oyuncağı çox az idi. Bir tankı, balaca əsgərləri, bir də taxtadan avtomatı vardı. Bizim dayımız da 1992-ci ildə şəhid olub. Anam şəhid qardaşından ürəkağrısı ilə danışanda qardaşım deyirdi, "Ana, ağlama, böyüyəndə gedib ermənilərdən dayımın qisasını alacağam". Elə də oldu, verdiyi sözünün arxasında həmişəki kimi dayandı... Məktəb illərində bir dəfə də olsun ondan şikayət gəlmirdi. Müəllimləri Məzdəkdən qürurla danışanda deyirdilər ki, hər zaman başını aşağı salıb dərsləri ilə məşğul olur. Bizi heç vaxt incitməyib. Universitet illərində də özünə hörmət qazanmışdı qardaşım. Məzdəklə bir dəfə söhbət edən onun necə gözəl insan olmağından danışır". Şəhidin bacısı daha sonra deyir ki, Məzdək heç vaxt ad gününü qeyd etməyib. Qardaşım Xocalı faciəsində anadan olmuşdu deyə, heç vaxt ad gününü qeyd etmirdik. Özü də istəmirdi. Dostları yığışmaq istəyəndə də deyirdi, "2-3 gün keçsin sonra yığışarıq". Həmin gün heç yerə getmirdi. Dostları deyir ki, cibində bir manat pulu qalsa belə ehtiyacı olana verərdi...".

Şəhid Məzdək Eyvazlının dostları öz hesablarına onun əziz xatirəsini yaşatmaq üçün yaşadığı binanın yanında adına bulaq tikdiriblər.

Ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə canlarını Vətən uğrunda fəda edərək xalqımıza qələbə sevincini yaşadan şəhidlərimizin ruhu əbədi olaraq yaddaşlara həkk olunub və hər zaman minnətdarlıqla anılacaq.